

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

# ŞƏRQ qapısı

**Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 79 (21.231)

*24 aprel 2015-ci il, cümə*

***Gündəlik ictimai-siyasi qəzet***

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Türkiyə Silahlı Qüvvələrinin nümayəndə heyəti ilə görüşmüşdür

Aprelin 23-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Türkiyə Respublikası Silahlı Qüvvələrinin Tibb Xidməti rəisi, Gülhanə Hərbi Tibb Akademiyasının rəisi, general-polkovnik Ömər Paç və onu müşayiət edən nümayəndə heyəti ilə görüşmüşdür.



Qonaqları salamlayan Ali Məclisin Sədri Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Türkiyə arasında hərbi sahədə əlaqələrin əsasının ümummilli liderimiz Heydər Əliyevin 1990-1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işlədiyi dövrlərdə qoyulduğunu bildirmişdir. Ötən dövrdə hərbi sahədə uğurlu əməkdaşlığın qurulduğunu diqqətə çatdıran Ali Məclisin Sədri qarşılıqlı səfərlərin bu baxımdan əhəmiyyətini qeyd etmişdir.

Naxçıvanda ordu quruculuğu sahəsində həyata keçirilən tədbirlərdən danışan Ali Məclisin Sədri Türkiyə Silahlı Qüvvələrinin bu sahədəki xidmətlərini diqqətə çatdırmış, xüsusilə hərbi tibbi xidmətin təşkili sahəsində bundan sonra da əməkdaşlığın davam etdirilməsinin vacibliyini vurğulamışdır.

Səmimi qəbula görə minnətdarlıq edən Türkiyə Respublikası Silahlı Qüvvələrinin Tibb Xidməti rəisi, Gülhanə Hərbi Tibb Akademiyasının rəisi, general-polkovnik Ömər Paç Naxçıvanda olmaqdan məmnunluğunu bildirmişdir. Ömər Paç Naxçıvan Muxtar Respublikasında ordu quruculuğu sahəsində görülən işləri yüksək dəyərləndirmiş, Naxçıvan səfərinin əməkdaşlıq üçün yeni imkanlar açacağına əminliyini ifadə etmişdir.

Söhbət zamanı Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Türkiyə arasında hərbi tibbi əməkdaşlıq sahəsində bundan sonra da qarşılıqlı səylərin göstəriləcəyi qeyd olunmuşdur.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Heydər Əliyev Muzeyində növbəti açıq dərs



***Naxçıvan şəhərindəki Heydər Əliyev Muzeyində "Naxçıvan" Universiteti tələbələrinin iştirakı ilə "Müstəqil Azərbaycan dövlətinin qurucusu" mövzusunda açıq dərs keçilib.***

Universitetin tədris işləri üzrə prorektoru, tarix üzrə fəlsəfə doktoru, dosent İbrahim Kazımbəyli bildirib ki, müstəqil Azərbaycanın qurucusu ulu öndər Heydər Əliyev şərəfli həyat və fəaliyyəti ilə tarixi min illərlə hesablanan, dünyanın zəfər salnaməsinə şanlı səhifələr yazan qədim bir xalqın simvolu səviyyəsinə yüksəlib. Bu gün qədirbilən hər bir Azərbaycan vətəndaşının qəlbində ulu öndərin ölməz, işıqlı obrazı yaşayır. Dahi rəhbərin vətənimizin suverenliyi, ölkəmizin düşdüyü bəlalardan xilas olunması, Azərbaycanın inkişafı naminə mübarizədə misilsiz xidmətləri Onu hələ sağlığında xalqımızın ümummilli liderinə çevirib.

Qeyd olunub ki, xilaskarlıq missiyası ümummilli liderimizin geniş miqyaslı fəaliyyətinin əsasını təşkil edib. Heyrətamiz idarəçilik istedadına, mətin iradəyə və böyük əzmkarlığa malik ulu öndərimiz Azərbaycana rəhbərliyinin birinci dövründə ölkəmizi tənəzzül burulğanından çıxararaq respublikamızı qısa vaxt ərzində qabaqcıl və nüfuzlu ölkə səviyyəsinə yüksəldə bilib.

Vurğulanıb ki, xalqımızın böyük oğlu Heydər Əliyev XX əsr Azərbaycan tarixində təkcə milli müstəqillik ideyasını praktik olaraq gerçəkləşdirmiş lider kimi deyil, həm də yaratdığı dövlətin möhkəmliyini, dayanıqlılığını təmin edən, onun hərtərəfli inkişafı üçün iqtisadi, siyasi, hüquqi zəmin hazırlayan böyük strateq, müdrik rəhbər kimi xalqımızın qəlbində yaşayır. Qüdrətli siyasətçinin əzmi və iradəsi ilə Azərbaycan dövləti 1990-1993-cü illərin ağır hadisələrindən keçib gələrək parçalanıb məhv olmaq təhlükəsindən qoruna bilib.

Bildirilib ki, Azərbaycan iqtisadiyyatı dirçəlib, ölkənin sənayesi və kənd təsərrüfatı inkişaf dövrünə qədəm qoyub. Dahi şəxsiyyətin ölkəmizdə nail olduğu ictimai-siyasi sabitliyin nəticəsidir ki, dünyanın nüfuzlu şirkətlərinin Azərbaycana olan marağı daha da artıb. Ulu öndər xalqımıza zəngin maddi və mənəvi dəyərlər, siyasi-iqtisadi cəhətdən etibarlı dayaqlar üzərində qurulmuş müstəqil Azərbaycan dövlətini miras qoyub. Görkəmli dövlət xadimi Heydər Əliyev həyatını təhlükə qarşısında qoyaraq ölkəmizi və xalqımızı bəlalardan qurtarıb. Bütün bunlara görə ümummilli liderimiz Heydər Əliyev xalqımızın qəlbində əbədiyaşarlıq qazanıb.

Sonra tələbələr muzeydəki eksponatlarla tanış olublar.

## Akademik Zərifə xanım Əliyevanın anadan olmasının 92-ci ildönümü münasibətilə tədbir keçirilib

***Naxçıvan Tibb Kollecində görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın anadan olmasının 92-ci ildönümü ilə əlaqədar lektoriya keçirilib.***

Tədbiri giriş sözü ilə kollecin direktoru İlhamə Mustafayeva açaraq bildirib ki, insan, vətəndaş və alim anlayışları Zərifə xanım Əliyeva şəxsiyyətində birləşərək bölünməz bir vəhdət təşkil edib. Zərifə xanımın elm aləminə qədəm qoyması, öz zəngin yaradıcılığı ilə Azərbaycan və dünya elminə dəyərli töhfələr verməsi təsadüfi deyildi. Ona işıqlı yol göstərən atası Əziz Əliyevin Zərifə xanımın həkim-oftalmoloq peşəsini seçməsində böyük təsiri olub. Görkəmli alim dünyada ilk dəfə olaraq görmə orqanının peşə patologiyasını araşdıran elmi-tədqiqat laboratoriyası yaradıb və praktik olaraq elm aləmində yeni bir istiqamətin – "peşə oftalmologiyası"nın əsasını qoyub. Bu mənada oftalmologiyada peşə xəstəlikləri probleminin öyrənilməsi Zərifə xanımın adı ilə bağlıdır.



Vurğulanıb ki, Zərifə xanım Əliyeva monumental əsərləri, elmi nailiyyətləri, pedaqoqluq səriştəsi ilə ideal bir həkim, böyük alim kimi xalqımızın qəlbində daim yaşayır və yaşayacaqdır. O, həmişə bizimlədir, bizim aramızda, bizim sıramızdadır. Zərifə xanım gözlərinə işıq verdiyi, nur bəxş etdiyi minlərin, milyonların qəlbində, işığında, nurunda əbədi yaşayır.

Görkəmli alimin həyatı, elmi-pedaqoji və ictimai fəaliyyətinin əsas məqamları haqda danışan İlhamə Mustafayeva deyib ki, bu böyük insanın fəaliyyətini araşdırdıqca maraqlı məqamlara rast gəlirik. Zərifə xanımın elmi axtarışları monoqrafiyalarda, müxtəlif kitablarda əks olunub. Bu əsərlər oftalmologiya sahəsində çalışan, təhsil alan insanlar üçün böyük elmi mənbədir. O, səhiyyədə kadr hazırlığına və həkimlərin ixtisasının təkmilləşdirilməsinə gərgin əmək sərf edib. Onun bilavasitə rəhbərliyi ilə həkim-oftalmoloqların böyük bir nəsli yetişib.

Naxçıvan Muxtar Respublikası Göz Xəstəxanasının baş həkimi Səidə Hüseynova çıxış edərək bildirib ki, Azərbaycan oftalmologiya elmini beynəlxalq aləmdə tanıdan yüksək intellekt sahibi, büllur çeşməyə bənzər mənəvi təmizlik və paklıq nümunəsi, SSRİ Tibb Elmləri Akademiyasının akademik M.Averbax adına mükafatını almış ilk azərbaycanlı Zərifə xanım Əliyeva XX əsrin dünya şöhrəti qazanmış qadınlarındandır. Zərifə xanım Əliyevanın qaynar həyat və yaradıcılıq fəaliyyəti Azərbaycan Tibb Universiteti, Moskvada Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutu və Ümumittifaq Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutu, Azərbaycan Elmi-Tədqiqat Oftalmologiya İnstitutu, Əziz Əliyev adına Həkimləri Təkmilləşdirmə İnstitutu ilə bağlı olub. Akademik Zərifə Əliyeva 150-dən çox elmi əsərin, 10 monoqrafiyanın, 12 səmərələşdirici təklifin, dərs vəsaitinin müəllifidir. Görkəmli alim Zərifə Əliyeva gənc nəslin təlim-tərbiyəsində, yüksək səviyyəli tibb işçilərinin, layiqli vətən övladlarının hazırlanmasında, həkim-oftalmoloqların ixtisaslarının ilbəil artırılmasında, professional elmi kadrların yetişdirilməsində böyük xidmətlər göstərib. O, onlarla elmlər doktoru və elmlər namizədi alimlik dərəcələri almaq üçün müdafiə edilmiş dissertasiyaların elmi məsləhətçisi və ya rəhbəri olub.

Vurğulanıb ki, akademik Zərifə xanım Əliyeva oftalmologiya elmində əldə etdiyi tutarlı nailiyyətlərə, xalqımızın sağlamlığı keşiyində dayanan çoxsaylı həkim-oftalmoloqların yetişdirilməsində əvəzsiz xidmətlərə görə "Azərbaycanın Əməkdar elm xadimi" fəxri adına layiq görülüb. O həmçinin çoxillik elmi, pedaqoji, ictimai fəaliyyəti nəticəsində qazandığı uğurlara görə bir sıra orden və medallarla, fəxri fərmanlarla təltif edilib. Akademik Zərifə Əliyevanın əsərləri ilə yaxından tanış olan dünya alimləri onun elmi-tədqiqat işlərinə yüksək qiymət veriblər.

Sonra tədbir iştirakçıları görkəmli akademikin həyat və fəaliyyətinə həsr olunmuş sənədli filmə baxıb, onun tibbi fəaliyyətini əks etdirən sərgi ilə tanış olublar.

## "Naxçıvanın görkəmli şəxsiyyətləri: Hinduşah Naxçıvani" adlı elmi konfrans



*Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Naxçıvan Bölməsində keçirilmiş konfransı giriş sözü ilə bölmənin sədri, akademik İsmayıl Hacıyev açıb, görkəmli alimin həyat və fəaliyyəti haqqında geniş məlumat verib.*

Qeyd edilib ki, Fəxrəddin Hinduşah Naxçıvani XIII-XIV əsrlərdə yaşamış azərbaycanlı tarixçi, dövlət xadimi, siyasət nəzəriyyəçisi, filoloq və ədibdir. "Əs-Sihah əl-Əcəmiyyə" adlı farsca-azərbaycanca lüğət müəllifi olan Hinduşah Naxçıvaninin adıçəkilən əsəri elmə məlum olan ilk fars və Azərbaycan dillərinin lüğəti kimi qiymətləndirilir. 21 bab, 393 fəsildən ibarət olan bu lüğət 3 hissədən – "Müqəddimə" (ərəb dilində), "Lüğət" və "Fars dilinin qrammatikası"ndan (ərəb dilində) ibarətdir.

Konfransda bölmənin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun şöbə müdiri, tarix üzrə fəlsəfə doktoru İlhami Əliyev "Görkəmli elm adamı Fəxrəddin Hinduşah Naxçıvaninin dövrü və mühiti", İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev "Fəxrəddin Hinduşah Naxçıvaninin həyat və yaradıcılığı", həmin institutun elmi işçisi Nərgiz İsmayılova "Fəxrəddin və Şəmsəddin Naxçıvanilərin həyat və yaradıcılığının öyrənilməsi məsələləri", bölmənin Əlyazmalar Fondunun şöbə müdiri Fəxrəddin Eylazov "Şəmsəddin ibn Hinduşah Naxçıvaninin həyat və yaradıcılığı" mövzularında çıxışlar ediblər.

Elmi konfransa AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev yekun vurub.

**Xəbərlər şöbəsi**

***Qardaş Türkiyədə və Azərbaycanda Çanaqqala zəfərinin 100-cü ildönümü böyük təntənə ilə qeyd olunur. Çanaqqala döyüşləri türk xalqının və Türkiyə hərb tarixinin ən şərəfli səhifələrindəndir. 1915-ci ildə Mustafa Kamal Paşanın başçılığı ilə türk əsgəri Antanta birliyi kimi güclü donanmaya malik dövlətlərlə qeyri-bərabər döyüşlərdən qalib çıxmış, türk xalqının Vətən sevgisi, qətiyyəti və cəsarəti qarşısında diz çökən düşmən geri çəkilmişdir.***

# Çanaqqala zəfəri

Osmanlı imperiyası XX əsrin əvvəllərində süquta doğru gedirdi. Xaricdə və ölkə daxilində baş verən proseslər Osmanlını çökdürür, onun iqtisadi, siyasi, hərbi gücünü zəifədirdi. Trablis və Balkan savaşlarındakı məğlubiyyət isə Avropadakı bütün torpaqların əldən çıxmasına səbəb olmuşdu. Rusiya boğazları ələ keçirib "isti dənizlərə" çıxmağı hədəfləyərkən, İngiltərə Süveyş kanalı və Hind okeanına gedən yolun təhlükəsizliyi üçün Fələstini ələ keçirmək planını hazırlayır, Fransa Livan, Suriya və Kilikiyanın idarəçiliyini arzulayır, almanlar Şərqə yiyələnmək niyyəti güdür, italyanlar isə Antalyaya sahib olmaq istəyirdilər. Çanaqqala zəfəri məhz hərbi-siyasi vəziyyətin gərgin olduğu, imperiya maraqlarının toqquşduğu belə bir şəraitdə qazanılmışdı. Ona görə bəzi tarixçilər bu zəfəri Birinci Dünya müharibəsinin məhvərini dəyişdirən qələbə kimi də qiymətləndirirlər.

Osmanlı dövləti 1914-cü il avqustun 21-də Almaniya ilə qarşılıqlı hərbi yardım və müttəfiqlik haqqında müqavilə imzalamışdı. Bu müqavilədən dərhal sonra ölkədə ittifaq dövlətlərinə qarşı müharibəyə hazırlıq başlanmışdı. Çünki hələ 1914-cü il avqustun 10-da Aralıq dənizində ingilis donanması qarşısında geri çəkilən iki alman gəmisinin Çanaqqala boğazını keçərək İstanbula gəlməsi böyük gərginlik yaratmışdı. 1914-cü il oktyabrın 27-də qəsdən "Yavuz" və "Midilli" adlandırılan həmin gəmilər alman admiral Sukonun əmri ilə Qara dəniz sahillərindəki Rusiya limanlarını bombalamış və bununla da, Osmanlı dövləti özü istəmədən Birinci Dünya müharibəsinə qoşulmuşdu.

1915-ci il fevralın 19-da Fransa və Britaniyaya aid 16 döyüş gəmisindən ibarət nəhəng donanma Osmanlı sahil qüvvələrini bombalayaraq Çanaqqala boğazına doğru irəliləyirdi. Lakin Gelibolu yarımadasına yerləşdirilən Osmanlı artilleriyası da düşməni göz açmağa qoymurdu. Müttəfiqlərin Aralıq dənizi qüvvələri kamandanı admiral Carden Çanaqqala boğazını keçərək İstanbula girmək üçün üçmərhələli hücum planı hazırlamışdı və belə hesab edirdi ki, bir ay ərzində İstanbulu alacaqdır. O, planın gedişini sınaqdan çıxarmaq üçün 7 zirehli gəmi ilə kəşfiyyat xarakterli hücum həyata keçirdi və sahil qüvvələrinə zərər vurdu. Türklər güclü müdafiə olunduqlarından ikinci hücum gecikdirilərək 19-25 fevral 1915-ci il tarixləri arasında, 7 gün fasilələrlə davam etdirildi. Onlar ancaq türk toplarının atış mənzilindən kənardan edilən atəşlərlə Türkiyənin müdafiə qüvvələrinin 19 topunu sıradan çıxarmaqla müəyyən müvəffəqiyyət qazandılar və fevralın 26-da boğaza girdilər. Müvəqqəti müvəffəqiyyətdən başı dumanlanan Carden Londona teleqraf göndərərək 14 gün müddətinə İstanbula girəcəyini bildirdi. Üçüncü mərhələ ciddi hazırlıqdan sonra, martın 18-də həyata keçirildi. Düşmən boğaza yaxın məsafədə topladığı 36 müxtəlif döyüş, 7 təyyarə gəmisi, 7 dənizaltı, 14 minatəmizləmə gəmisi və 6 yardımçı gəmilərin böyük bir hissəsi ilə hücuma başladı. Bu döyüşlərdə türk müdafiəsinin ən önəmli yeri Müstahkəm mövqeyi idi. 1915-ci ilin ilk aylarında burada 27 bölük halında qurulmuş bir mina qrupu ilə 104 top vardı. 6 saatlıq döyüşdə düşmənin 3 gəmisi batırıldı, 3 ağır zərbə alaraq döyüş qabiliyyətini itirməklə geri çəkildi. Beləliklə, düşmənin dəniz hərəkatı tam iflasa uğradı, İstanbulu bir aya tutmaq xəyalı bir donanmanın maddi və mənəvi məhvinə səbəb oldu.

Dəniz döyüşlərində ağır zərbə alan müttəfiq ordular qurudan əməliyyat keçirmək məqsədilə sahilə qoşun çıxarmaq qərarına gəldilər. Bunun üçün bir aydan artıq hazırlıq görüldü. Aprelin 24-dən başlayaraq müttəfiq donanması müəyyən məsafəyə qədər boğaza yaxınlaşdı. Səhər tezdən gəmilər sahildəki müdafiə xətlərini atəşə tutmağa başlasalar da, quruya qoşun çıxara bilmədilər. Aprelin 28-də Kirtə ətrafındakı döyüşlərdə böyük itki verən ingilislər geri çəkildilər. Quruda ağır döyüşlərdən biri də aprelin 24-də və 25-də başlanıb fasilələrlə davam edən Arıburnu döyüşü idi. Döyüşdə Mustafa Kamalın komandanlıq bacarığı nəticəsində ciddi müvəffəqiyyətlər əldə edilmiş, Arıburnu, Anafartlar, bütövlükdə, Gelibolu yarımadasında böyük müvəffəqiyyətlər qazanılmışdır.

Dəniz döyüşlərində olduğu kimi, Çanaqqala ətrafında gedən quru döyüşləri də müttəfiqlərin ordularını geri çəkməsi və türk ordusunun zəfəri ilə bitdi.

Çanaqqala müasir silahlarla silahlanmış ordunun qarşısında günlük yeməyi bir tikə çörək olan, bəzən bunu da tapa bilməyən, ayaqyalın vətən oğlunun dünyaya meydan oxuyan ingilis-fransız ordusu üzərində zəfəridir. Bu döyüşlər türkün yenilməzliyini göstərdi, milli mücadilənin öndəri Mustafa




Kamalı tarix səhnəsinə çıxardı. Bəzi mənbələrə görə, o ildə ölkənin bir sıra yüksək təhsil sahələrinin buraxılışı olmamışdır. Çünki orada oxuyanların əksəriyyəti Vətən üçün şəhid olmuşdur. İngilis baş komandanı general Hamilton türk ordusunun və əsgərinin döyüş şücaətinə çox böyük dəyər verərək yazırdı: *"Türk ordusunun və polkovnik Mustafa Kamal kimi dahi bir komandirin qarşısında dayanırıq. Bunu heç zaman unutmayaq"*.

Əslində, ittifaq dövlətlərinin əsas məqsədi Çanaqqala boğazını keçərək İstanbul şəhərinə gedən yolu açmaq, bütün Anadolu torpaqlarını işğal etməklə türkün buradakı varlığına son qoymaq idi. Lakin bu istəklərinə nail ola bilmədilər. Osmanlı ordusunun qətiyyətlə müqavimət göstərməsi, daha sonra əks-hücuma keçərək düşmənin ordu birləşmələrini darmadağın etməsi bir daha təsdiq etdi ki, millətin iradəsini qırmaq mümkün deyil. Çanaqqala zəfəri bunun tarixi sübutudur.

Çanaqqalada və digər ərazilərdə qanlı döyüşlərin getdiyi bir dövrdə ermənilər türk xalqına arxadan zərbə vuraraq "ikinci cəbhə" açdılar. Hərbi əməliyyatlar başlayan kimi Türkiyə Böyük Millət Məclisinə Ərzurumdan deputat seçilən Qaro Basdırmacan ermənilərdən ibarət hərbi hissələrlə birlikdə rusların tərəfinə keçdi. Qaronun başçılıq etdiyi dəstələr türk kəndlərini dağıdır, əhalini amansızcasına qırırdılar. Tək bir gündə – 21 fevral 1914-cü ildə Qarsda və Ərdahanda erməni quldur dəstələri tərəfindən 30 min türk qətlə yetirilmişdi. Ermənilərin türk-müsəlman əhalisinə qarşı soyqırımı 1915-ci illə bitmədi, əksinə, sonrakı illərdə daha da şiddətləndi, 1916-cı il mayın 11-də Malazgird şəhərində 20 min türk vəhşicəsinə öldürüldü.

İstər Çanaqqala zəfərinin əldə edilməsində, istərsə də ermənilərin törətdikləri soyqırımının qarşısının alınmasında Azərbaycan xalqının qəhrəman övladları da yaxından iştirak etmişlər. Çanaqqala döyüşlərində türk ordusu 253 min şəhid vermişdir. Arxiv sənədlərindən məlum olur ki, şəhid olanların 3 mini azərbaycanlı idi. Azərbaycan xalqı qan və can qardaşlarını cəbhədə tək qoymamış, qəhrəman oğullarımız türk əsgərləri ilə çiyin-çiyinə yağı düşmənə qarşı rəşadətlə vuruşmuşdur. Birinci Dünya müharibəsi dövründə, xüsusilə 1915-ci ildən başlayaraq Osmanlı ərazilərində Azərbaycan könüllülərindən ibarət dəstələr təşkil edilirdi. Bu taburlara daxil olan könüllülər Qafqaz və Cənubi Azərbaycandan olduqları üçün bölgəni yaxşı tanıyırdılar və onlardan cəbhədə istifadə etmək haqqında Osmanlı hökuməti tərəfindən xüsusi qərar qəbul edilmişdi.

Birinci Dünya müharibəsi ərəfəsində və ondan sonrakı dövrlərdə azərbaycanlıların Türkiyəyə göstərdiyi yardımlar haqqında tədqiqatçı, jurnalist Abdulhamit Avşar yazırdı: *"Milli mübarizənin başlanması ilə Azərbaycan türkləri Anadoluya mənəvi dəstəyi ilə birlikdə, müxtəlif maddi dəstəklər də göstərmişdir. Bu maddi dəstək mövzusu çox önəmlidir. Çünki Azərbaycan Xalq Cümhuriyyəti o tarixlərdə hələ bir yaşında dövlət idi. Hələ öz varlığını qəbul etdirmək, yaşamaq uğrunda mübarizə aparmaqda idi. Bu vəziyyətə və yardımına ehtiyac duyduğu güclərin Anadolu milli mübarizəsinin düşmənləri olduğuna baxmayaraq, əlindən gələn yardımı göstərməyə çalışmışdır"*.

Daha sonra müəllif Türk Silahlı Qüvvələri Baş Qərargahının Arxiv İdarəsindəki sənədlərə istinadən yazır ki, Azərbaycan ordusundan alay böyüklüyündəki bir birlik Albay Səməd bəyin komandanlığında Cənubi Azərbaycan üzərindən Ərzuruma gələrək Anadolu milli mübarizəsi sıralarına qoşulmuşdur. Azərbaycan hərbi birliklərinin Türkiyə ordusuna qoşulacağı xəbərini ilk olaraq Silahlı Qüvvələrin Baş Qərargah rəisi İsmət İnönü vermişdir. Belə ki, 8 iyul 1920-ci il tarixdə Türkiyə Böyük Millət Məclisində ümumi hərbi vəziyyətlə bağlı çıxış edən İsmət bəy Azərbaycandan kömək məqsədilə əlavə bir qüvvə gəldiyini açıqlamışdır. Bir piyada taburu və bir süvari alayından ibarət olan birlik dərhal şərq cəbhəsinə göndərilmişdir. 15-ci süvari alayına qoşulan birlik Şərqi Anadolunun ermənilərdən geri alınması ilə sona çatan Doğu hərəkatında olmuş, Sarıqamışın, Qarsın, Gümrünün ermənilərdən geri alınmasında mühüm xidmətlər göstərmişdir.

Azərbaycan türklərindən ibarət 15-ci süvari alayının bu qələbəsinə görə onun nəzdində 6-cı süvari tüməni təşkil edilmişdir. Bu tümən şərq cəbhəsində İstiqlal savaşının sonuna qədər vəzifəsini yerinə yetirmişdir. Bu hərbi birlikdən başqa, milli mübarizənin müxtəlif cəbhələrində də xeyli azərbaycanlı zabit və əsgər könüllü xidmət etmişdir. Bu şəxslərin əksəriyyəti İstiqlal savaşından sonra orduda qalmış və yüksək rütbələrədək yüksəlmişlər.

Türkiyəyə çətin müharibə şəraitlərində daim kömək əlini uzadan Azərbaycanda yaradılmış Xeyriyyə Cəmiyyətinin də fəaliyyətini qeyd etmək yerinə düşər. Bu cəmiyyət tərəfindən Birinci Dünya müharibəsi zamanında rus işğalı altında olan ərazilərə – Oltu, Həsənqala, Hınıs, İspir, Van, Muş, Bəyazid, Ərzincan, Ərzurum, Qars, Trabzon və digər yerlərə ərzaq, pul, geyim, yanacaq və sair yardımlar göndərilmişdir. Bunun nəticəsidir ki, Qurtuluş savaşında Türkiyə yanacaqla bağlı çətinlik çəkməmişdir.

Xatırlamaq lazımdır ki, ötən əsrin əvvəllərində Azərbaycanın qərbində, Zəngəzurda, habelə Qarabağ, Naxçıvan və Bakı şəhərində erməni hərbi birləşmələri azərbaycanlılara qarşı soyqırımı törədirdi. Məhz belə bir dövrdə türk əsgərlərinin Azərbaycana gəlməsi, burada yerli müdafiə qüvvələri ilə birlikdə vuruşması, Osmanlıların beşinci piyada diviziyası ilə Azərbaycanın milli müsəlman korpusunun döyüşçülərindən ibarət Qafqaz İslam Ordusunun yaradılması və bu ordunun Bakının erməni daşnaklarından təmizlənməsindəki rolu Türkiyə və Azərbaycan qardaşlığının əsrlərə söykənən həmrəyliyini bir daha ortaya qoyur.

Ümummilli lider Heydər Əliyev müstəqil Azərbaycanla Türkiyə arasında əlaqələrə daim üstünlük vermiş, bu əlaqələri "bir millətin iki dövləti" səviyyəsinə qaldıraraq demişdir: ***"Türkiyə ilə Azərbaycan arasındakı dostluq, qardaşlıq əlaqələri böyük və zəngin tarixə malikdir. Bizim keçmişimiz də, bu günümüz də dostluq, qardaşlıq əlaqələri ilə səciyyəvidir"***.

Böyük öndərlər – Heydər Əliyev və Mustafa Kamal Atatürkün Azərbaycan və Türkiyə üçün arzuları bu gün hər iki ölkədə reallaşdırılır. Bu gün iki qardaş ölkə arasında bütün sahələr üzrə qurulan əməkdaşlıq dünyaya nümunədir. Sıx əlaqələrə malik olan Azərbaycan ilə Türkiyənin iqtisadi, siyasi, hərbi gücü, beynəlxalq aləmdəki nüfuzları hər il daha da artır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dediyi kimi: ***"Türkiyə və Azərbaycan xalqları öz gələcəyini müştərək tarix üzərində qururlar"***.

Aprelin 24-ü – Çanaqqala Zəfəri Günü bütün Türk dünyasının qələbə günü, iftixar mənbəyi, qürur tarixidir. Çanaqqalada düşmən üzərində qazanılan zəfərin 100 illiyinin qardaş ölkələr olan Türkiyə və Azərbaycanda böyük təntənə ilə qeyd olunması iki ölkə arasındakı birliyin və sarsılmazlığın daha bir ifadəsidir.

**"Şərq qapısı"**

## Çanaqqala zəfərinin 100 illiyi münasibətilə tədbir keçirilib

***Aprelin 23-də Əlahiddə Ümumqoşun Ordusunun Təlim-Tədris Mərkəzində Çanaqqala zəfərinin 100-cü ildönümü münasibətilə tədbir keçirilib.***

Tədbiri giriş sözü ilə Əlahiddə Ümumqoşun Ordusunun Mənəvi-psixoloji təminat şöbəsinin rəisi, polkovnik Mirqiyas Rüstəmov açaraq bildirib ki, Birinci Dünya müharibəsi zamanı – 1915-1916-cı illər arasında Osmanlı dövləti ilə Antanta İttifaqı arasında dəniz və quru döyüşləri olub. Düşmən qüvvələri ilk hədəf kimi Türkiyənin mühüm strateji mövqelərindən biri olan Çanaqqala boğazını seçmişdilər.





Ancaq ittifaqa daxil olan dövlətlərin hücumları müvəffəqiyyətsizliyə düçar edilib və düşmən geri çəkilməyə məcbur olub. Osmanlı ordusu ittifaq dövlətləri ilə müqayisədə sayının az, təchizat baxımından isə zəif olmasına baxmayaraq, düşmənin bütün hücumlarını dəf etməyi bacarıb. Türk ordusu bu ağır döyüşdə 253 min şəhid verib. Bu şəhidlər arasında 3 minədək azərbaycanlı könüllü qəhrəmancasına vuruşaraq əbədiyyətə qovuşub.

Qeyd olunub ki, Çanaqqala zəfəri məhv olmaq təhlükəsində olan bir ölkənin şanlı qələbəsidir. Eyni zamanda bu zəfər türk millətinin gücünün və sarsılmazlığının ifadəsidir.

Tədbirdə istedadlı hərbi qulluqçulardan ibarət bədii özfəaliyyət kollektivlərinin çıxışları alqışlarla qarşılanıb.

Sonda hərbi-vətənpərvərlik mövzusunda film və slaydlar nümayiş etdirilib.

**Xəbərlər şöbəsi**

*Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının ərazisidir. Bu gözəl səfalı region şimal-qərbdən Türkiyə, şimal və şərqdən Ermənistan, cənubdan isə İran ilə həmsərhəddir. Naxçıvanın ölkənin digər hissəsindən təcridi yalnız Stalinin 1920-ci ildə Zəngəzur mahalını Ermənistanın nəzarətinə verməsi ilə başlayıb. Dağlıq Qarabağ (bu Azərbaycan torpağı hal-hazırda Ermənistanın işğalı altındadır) münaqişəsi zamanı erməni qüvvələri Naxçıvanı da işğal etməyə çalışdılar, lakin Kərki kəndindən başqa, heç bir ərazini işğal edə bilmədilər.*

# Naxçıvan – kəşf edilməmiş diyar, Nuh Peyğəmbərin yurdu

Muxtar respublikanın paytaxtı Naxçıvan şəhəridir. Ərazisi 5500 kvadratkilometr, əhalisi 500 min nəfərə yaxındır. Ərazisinin, təxminən, 75 faizi 1000 metr və daha yuxarı yüksəklikdə yerləşir. Naxçıvan öz əzəmətli dağları ilə tanınır.

Naxçıvan haqqında ilk yazılı məlumata yunan coğrafiyaşünası Ptolomeyin "Coğrafiya" kitabında "Naksuana" kimi rast gəlinir. O yazır ki, bu şəhərin əsası eradan əvvəl 4400-cü ildə qoyulub. İmperiyalar, sultanlıq və xanlıqlar dövrünün əhatəsində Naxçıvan adı bir çox dəfə dəyişilib: "Nəxşicahan" (dünyanın bəzəyi), "Nuhçıxan" (Nuh Peyğəmbərin diyarı) və sair. "Naxçıvan" sözü ilkin mənbələrdə müxtəlif formalarda göstərilib. Yunanca "Naksuana", pəhləvicə "Naxç", ərəbcə "Nəşəva". Naxçıvanın adı ilə bağlı bir çox tədqiqatçıların irəli sürdüyü müxtəlif fikirlərə baxmayaraq, bu diyarın adı daha çox Nuh Peyğəmbər və böyük Dünya tufanı ilə bağlıdır. Bu faktı Nuh əfsanəsinin müqəddəs Quran və İncildə mövcudluğu, Bilqamıs dastanı və Kiçik Qafqaz dağlarının ən yüksək zirvələrində (Naxçıvanın Ordubad rayonu ərazisində yerləşir) – dəniz səviyyəsindən 3907 metr yüksəklikdə yerləşən Qapıcıq zirvəsində olan Gəmiqaya qayaüstü yazı və rəsmləri təsdiq edir. Nuh Peyğəmbərin qəbri Naxçıvan şəhərindədir. Onun şərəfinə burada məqbərə ucaldılıb.

Naxçıvan şəhəri qədim ticarət yollarının kəsişməsində yerləşir. Erkən orta əsrlərdə Naxçıvanın Kiçik Asiya, Orta Şərq və Zaqafqaziya ölkələri arasında əlaqələri xüsusilə yaxın olmuşdur. Şəhərin zənginliyi və onun geosiyasi mövqeyi qonşu ölkələrdən buraya tez-tez hücumların olmasına səbəb olmuşdur. Bizim eradan əvvəl I əsrin ortalarında Naxçıvan




Bizans imperatoru II İraklinin hücumuna məruz qalmış və dağıdılmışdır. Tez-tez monqol hücumları zamanı talanmış, Bizans imperiyası və Ərəb xilafəti arasında daimi münaqişələrə səbəb olmuşdur. Bütün vaxtlarda Naxçıvan Sacilər və Salarilər dövlətlərinin əsas şəhərlərindən biri, Azərbaycan dövləti olan Eldəgizlərin isə paytaxtı olmuşdur. Nəhayət, XVIII əsrdə müstəqil xanlıq olmuş və XIX əsrdə Rusiyaya birləşdirilmişdir. 1991-ci ildə SSRİ dağılmağa başlayanda Naxçıvan Litvadan sonra ilk olaraq müstəqilliyini elan etdi. Bu gün Azərbaycanın tərkibində muxtar respublikadır. Naxçıvanın öz Ali Məclisi və Nazirlər Kabineti vardır. Ali Məclisin Sədri Ali Vəzifəli Şəxsdir.

Qədim dövrlərdə şəhər həm də yüksək səviyyədə ticarət mərkəzi kimi öz rəssam, eləcə də sənətkarları, xalçaçıları və zərgərləri ilə məşhur olmuşdur. Lakin şəhər xüsusilə də Naxçıvan memarlıq məktəbinin memarları ilə tanınırdı. Fransız səyyahları Pierre Chardine, Dubois de Monpierre və ingilis səyyah Porter qeyd edirdilər ki, Naxçıvan yaxşı qorunub saxlanılan qədim memarlıq abidələri ilə gözəl və dəbdəbəli şəhərdir. Türk səyyah Övliya Çələbi yerli hamamlarda hovuzların suyunun hər gün səbətlər dolu qızılgül ilə ətirləndirildiyindən ovsunlandığını deyirdi.

Bu gün Naxçıvanda elm və təhsilin inkişafına xüsusi diqqət yetirilir. Burada hal-hazırda iki universitet, Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi və Müəllimlər İnstitutu fəaliyyət göstərir. Məktəblər də diqqətdən kənar qalmır – köhnə məktəblər yenisi ilə əvəz edilir, son texnologiyalar və avadanlıqlarla tam təchiz olunur. Şəhərdə mədəniyyət sarayı, dram teatr, kukla teatrı, xalça muzeyi, tarix muzeyi və sair fəaliyyət göstərir. Tam təchizatlı olimpiya kompleksi tikilib istifadəyə verilmişdir. Burada iqtisadiyyat sürətlə inkişaf edir, yeni zavodlar, fabriklər və müəssisələr açılıb və çoxlu iş yerləri yaradılmışdır.

Naxçıvanın turizm potensialı çox yüksəkdir. İl ərzində yerli və xarici turistlərə mədəni irs, tarix, botanik, ekoloji, tibbi sağlamlıq və sair kimi bir çox turizm sahələrində xidmətlər göstərilir. Xarici turistlər Naxçıvana İstanbuldan Türk Hava Yollarının təşkil etdiyi mütəmadi təyyarə reysləri vasitəsilə çata bilərlər. Bundan əlavə, Azərbaycan Hava Yolları Bakıdan Naxçıvana gündə ən az 4 uçuş təşkil edir. Siz buraya həmçinin Rusiyanın Moskva şəhərindən də uça bilər, İrandan və Türkiyədən avtomobil və ya avtobusla gələ bilərsiniz.

Naxçıvan dünyaya Möminə xatın məqbərəsi (XII əsr), Yusif Küseyir oğlu türbəsi (XII əsr), iki minarəli Qarabağlar türbəsi (XIII əsr), Əlincəçay Xanəgahı (XII-XIII əsrlər), Əshabi-Kəhf (müqəddəs Quranda adı keçir), Aza körpüsü (XVI əsr), Gülüstan türbəsi (XIII əsr), İmamzadə kompleksi (XVI əsr), Əlincə qalası, Gilan şəhərinin qalıqları və sair kimi zəngin memarlıq irsi təqdim edir.

Naxçıvanın həm də qədim sağlamlıq tarixi vardır. Zəngin təbii dərman bitkiləri sayəsində müxtəlif xəstəliklər müvəffəqiyyətlə müalicə edilmiş və bu praktika nəsillərdir davam etməkdədir. Duz mağaralarında yerləşən Duzdağ Fizioterapiya Mərkəzi astma və bronxial sistemi xəstəliklərinin müalicəsində ixtisaslaşmış ən mühüm tibbi mərkəzlərdən biridir. Darıdağ Balneoloji (arsenli su) Xəstəxanası Culfa şəhərindən 8 km məsafədə arsenli su yatağının ərazisində yerləşir və 1978-ci ildə yaradılmışdır. Darıdağ arsenli mineral su ilə müxtəlif ürək xəstəlikləri, dayaq-hərəkət aparatı orqanları xəstəlikləri, periferik əsəb sistemi, dəri xəstəlikləri, qadın xəstəlikləri, qanazlığı və bir çox digər xəstəliklər müalicə edilir. Dünyanın üz tutan çoxlu xəstələr tez bir zamanda sağalır. Naxçıvanın bu yerləri tarixi-mədəniyyət və ekoloji turizmin potensial mənbəyi kimi təşviq edilir.

Sonda qeyd etmək istərdik ki, Naxçıvan çoxlu tanınmış dövlət xadimləri, siyasi və hərbi liderlər, alimlər, yazıçılar, tarixçilər, filoloq və sair yetirib. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev də Naxçıvanda anadan olub.

Naxçıvan dünyanın sizi təəccübləndirəcək dərəcədə hər şeyi yerli-yerində, mütərəqqi və iftixarlı bir guşəsidir. Burada yerli orqaniktəbii məhsulların istehsalına, alternativ təbabətə, sağlamlıq turizminə xüsusi diqqət verilir. Bütün məhsullar ekoloji baxımdan təmizdir. Burada istifadəçilər həmçinin genişzolaqlı sürətli internetə çıxışla da təmin olunublar.

**Peter TASE**
***Amerika Birləşmiş Ştatları "Foreign Policy News" jurnalı, 17 aprel 2015-ci il***

# Ümumdünya Kitab və Müəllif Hüquqları Günü qeyd edilib



***Dünən M.S.Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasında Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə Ümumdünya Kitab və Müəllif Hüquqları Gününə həsr olunmuş tədbir keçirilib.***

Tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm nazirinin müavini, sənətşünaslıq üzrə fəlsəfə doktoru Natəvan Qədimova açıb. Qeyd edilib ki, insan təfəkkürünün məhsulu olan kitab elmin, mədəniyyətin, ədəbiyyatın inkişafında mühüm rol oynayıb. Bu günün qeyd olunması hər kəsin diqqətini bir daha yaradıcı insanların əməyinə yönəldir. Azərbaycan Respublikasında yaradıcı insanların müəllif hüquqlarının qorunmasına qayğı göstərilir.

Nazir müavini Azərbaycanda, o cümlədən Naxçıvan Muxtar Respublikasında kitab və müəllif hüquqları ilə bağlı məsələlərdən danışarkən ümummilli lider Heydər Əliyevin bu sahədə gördüyü işlərin bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini qeyd edib.

Mədəniyyət və Turizm Nazirliyinin şöbə müdiri Həsən Kərimov "23 aprel Ümumdünya Kitab və Müəllif Hüquqları Günüdür" mövzusunda çıxış edib. Vurğulanıb ki, bu günün qeyd olunması haqqında YUNESKO-nun 1995-ci ildə Parisdə keçirilən sessiyasında qərar qəbul edilib. Bu gün həm də dünya ədəbiyyatının bir sıra görkəmli nümayəndələrinin xatirə günü kimi də əlamətdardır.

Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri, şair Asim Yadigar "İnsan mənəviyyatının zənginləşməsində kitabın rolu" mövzusunda çıxış edərək mənəvi sərvətlər xəzinəsi olan kitabın insan cəmiyyətində humanizmin, insanpərvərlik duyğularının formalaşmasındakı rolundan danışıb. Müəllif hüquqlarına da toxunan birlik sədri son dövrlərdə plagiatlığa qarşı mübarizə üsullarından da bəhs edib.

M.S.Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasının direktoru, tarix üzrə fəlsəfə doktoru Aytəkin Qəhrəmanova "Kitabxana işinin tarixi" adlı çıxışında Azərbaycanda kitab mədəniyyətinin, kitabxanaların yaranma tarixindən söhbət açıb.

AMEA Naxçıvan Bölməsinin elmi işçisi, Yazıçılar Birliyinin üzvü, şair Elxan Yurdoğlu "Son illərdə Naxçıvan ədəbi mühitində tərcümə məsələləri" mövzusunda çıxış edib. Diqqətə çatdırılıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı ilə bir neçə tərcümə əsəri işıq üzü görüb. Hazırda Yazıçılar Birliyinin Tərcümə mərkəzində tərcümə edilmiş bir neçə kitab nəşrə hazırlanır. Bu tərcümə kitablarının orijinaldan – rus, ingilis, fransız, qaqauz və başqa dillərdən tərcümə edilərək hazırlanması tərcümə sənətinin inkişafını stimullaşdırır.

Sonda kitabxanada təşkil edilmiş kitab sərgisinə baxış olub.

*Muxtar respublikada əməyin mühafizəsi, təhlükəsiz iş yerlərinin yaradılması daim diqqət mərkəzində saxlanılır, bu istiqamətdə ardıcıl tədbirlər həyata keçirilir.*

# Ümumdünya Əməyin Mühafizəsi Günü münasibətilə seminarlar təşkil olunub



Bu il fevralın 9-da Naxçıvan Muxtar Respublikasında 2014-cü ilin yekunları və qarşıda duran vəzifələrə dair keçirilən müşavirədə istehsal müəssisələrində əməyin təşkili və təhlükəsizlik qaydalarına əməl olunmasına, tikinti sektorunda bədbəxt hadisələrin qarşısının alınması üçün işçilərin fərdi və xüsusi mühafizə vasitələri ilə təchiz olunmalarına, onların texniki təhlükəsizlik qaydaları barədə təlimatlandırılmasına nəzarətin artırılması barədə aidiyyəti orqanlara tapşırıqların verilməsi insan amilinə göstərilən davamlı qayğının ifadəsidir.

Muxtar respublikada işçilərin sağlamlığının qorunması məqsədilə iş yerlərində əməyin mühafizəsinin təşkilinin, bu istiqamətdə qanunvericiliyin tələblərinə əməl edilməsinə nəzarətin nəticəsidir ki, əməyin mühafizəsi sahəsində müsbət göstəricilər ilbəil artır.

28 aprel – Ümumdünya Əməyin Mühafizəsi Günü muxtar respublikada geniş qeyd olunur. Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi "Əməyin mühafizəsində önləyici tədbirlər mədəniyyətini birgə yüksəldək!" devizi ilə müxtəlif tədbirlər, o cümlədən istehsalat xüsusiyyətləri nəzərə alınmaqla müəssisələrdə əməyin mühafizəsi üzrə biliklərin, peşəkarlığın artırılması məqsədilə maarifləndirici seminarlar təşkil edib.

İlk tədbir aprelin 21-də "Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyəti və muxtar respublika ərazisində tikinti aparan müəssisələrdə keçirilib. Aprelin 22-si və 23-də isə bu seminarlar Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Agentliyində, Avtomobil Yolları Dövlət Şirkətində, "Cahan Holdinq" və "Dizayn Holdinq" Kommersiya Şirkətlər ittifaqlarında təşkil edilib. Seminarlarda Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinin, Gigiyena və Epidemiologiya Mərkəzinin əməkdaşları iqtisadiyyatın müxtəlif sahələrində çalışan işçilər üçün sağlam sanitariya-gigiyena və təhlükəsiz əmək şəraitinin yaradılması, əməyin mühafizəsi normaları və qaydalarına riayət olunması, bədbəxt hadisələrin və peşə xəstəliklərinin qarşısının alınması, işçilərin icbari tibbi müayinədən keçmələri və sair mövzularda çıxışlar edib, həmçinin işçilərin əmək prosesində təhlükəsizlik qaydalarına düzgün əməl etmələri ilə bağlı müvafiq metodik təlimatlandırma işləri aparıblar.

Tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb və onlara əməyin mühafizəsinə dair bukletlər təqdim edilib.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

# Prokurorluq orqanları hüquqi maarifləndirmə tədbirlərini davam etdirir

***Aprelin 23-də Babək Rayon Prokurorluğunun təşkilatçılığı ilə rayonun Nehrəm kəndində elektrik enerjisindən və təbii qazdan düzgün istifadə qaydalarına, həmçinin ətraf mühitin qorunmasına həsr olunmuş maarifləndirici tədbir keçirilib.***

Tədbirdə Babək rayon prokuroru, ədliyyə müşaviri Əsrafil Əsgərov "Təbii qazın, elektrik və istilik enerjisinin talanması iqtisadiyyatımıza zərbədir" mövzusunda məruzə ilə çıxış edib. Qeyd olunub ki, böyük dövlət qayğısı nəticəsində muxtar respublikamızda əhali fasiləsiz elektrik enerjisi və təbii qazla tam təmin olunub. Hazırda qarşıda duran başlıca vəzifə enerji resurslarından səmərəli istifadə olunmasından ibarətdir. Ona görə də hər bir idarə, müəssisə və təşkilat, eləcə də hər bir vətəndaş elektrik enerjisindən və təbii qazdan səmərəli istifadə etməli, israfçılığa, qanunsuz istifadə hallarına qətiyyən yol verməməlidir.

Əsrafil Əsgərov elektrik enerjisindən və təbii qazdan qanunsuz istifadə halları ilə əlaqədar Cinayət Məcəlləsindəki maddələr barədə sakinlərə ətraflı məlumat verib.

Sonra Babək rayon prokurorunun böyük köməkçisi, ikinci dərəcəli hüquqşünas Vüqar Hüseynov ətraf mühitin mühafizəsi barədə çıxış edərək bildirib ki, ölkəmizdə son illərdə ətraf mühitin mühafizəsi və təbii sərvətlərdən səmərəli istifadəyə dair bir sıra normativ-hüquqi aktlar qəbul edilib, təbiətin qorunması sahəsində mühüm addımlar atılıb. Nəzərə çatdırılıb ki, ətraf mühitə ziyan vurulması nəticəsində bitki örtüyünün, heyvanların, su obyektlərinin, bioloji sərvətlərin məhv olması, atmosferin çirklənməsi və sair hallar baş verir. Odur ki, ətraf mühitin qorunması günümüzün vacib məsələlərindən biridir və bu iş hər kəsin vətəndaşlıq borcudur.

Qeyd olunub ki, ekologiyadan istifadə sahəsində inzibati məsuliyyət Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsindəki "Ətraf mühitin mühafizəsi, təbiətdən istifadə və ekoloji təhlükəsizlik qaydaları əleyhinə olan inzibati xətalar" fəslində, ekologiyadan istifadə sahəsində cinayət məsuliyyəti isə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin "Ekoloji cinayətlər" adlanan 28-ci fəslində öz əksini tapıb. Vüqar Hüseynov qanunsuz istifadə halları ilə əlaqədar İnzibati Xətalar və Cinayət məcəllələrindəki maddələr barədə sakinlərə məlumat verib.

Sonda tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

**Xəbərlər şöbəsi**

*Qələbə – 70*

# Qələbənin qazanılmasında naxçıvanlıların da böyük rolu olub

***1941-1945-ci illər Böyük Vətən müharibəsi. SSRİ-də yaşayan xalqların, o cümlədən azərbaycanlıların 1941-1945-ci illərdə dünyanı bürüməkdə olan faşizmə qarşı apardığı savaş tarixə bu adla düşüb. Düz 70 il əvvəl başlanan və 1418 gün davam edən döyüşlər dünyanın faşizm bəlasından xilas olunması ilə nəticələndi. Bu müharibədə qazanılmış qələbədə Azərbaycan xalqının övladlarının da özünəməxsus payı danılmazdır.***

1941-1945-ci illər müharibəsi başlanan günü keçmiş SSRİ-nin tərkibinə daxil olan bütün müttəfiq respublikaların əhalisi kimi, Azərbaycan Respublikasının və onun ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikasının igid oğul və qızları ordu sıralarına yollandı. Azərbaycandan 700 minə yaxın, o cümlədən muxtar respublikamızdan 30 min nəfərə yaxın ləyaqətli oğul və qızlarımız Vətənin müdafiəsinə getdi. Azərbaycanlılardan ibarət 77-ci "Simferopol", 223-cü "Belqrad", 416-cı "Taqanroq" və 402-ci "Azərbaycan" adlı diviziyalar döyüş əməliyyatlarında mərdlik və cəsarət nümunəsi göstərərək keçmiş SSRİ-nin alman faşist ordusu tərəfindən işğal olunmuş ərazilərinin azad edilməsində yaxından iştirak etmiş, şirin canını düşmən gülləsinə sipər edən ləyaqətli oğul və qızlarımızın hər iki nəfərdən biri qəhrəmancasına həlak olmuşlar.

416-cı diviziya Şimali Qafqazdan Berlinədək ağır döyüş yolu keçmiş, düşmənin 23 minə yaxın canlı qüvvəsini məhv etmiş, 5474 əsgər və zabitini əsir götürmüşdür. Taqanroq şəhərinin azad olunmasındakı xidmətlərinə görə, 416-cı "Taqanroq" diviziyası fəxri ad almışdır. Diviziyanın əsgərləri Berlində Brandenburq darvazasına qələbə bayrağını sancmışlar. Ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü ilə 1970-ci illərdə Rostov vilayətinin Taqanroq şəhərində diviziyanın şərəfinə monumental abidə ucaldılmışdır.

Misilsiz qəhrəmanlıq göstərdiklərinə görə, 128 soydaşımız, o cümlədən muxtar respublikamızdan Abbas Quliyev, Nəcəfqulu Rəfiyev və Qəzənfər Əkbərov ən yüksək mükafata – "Sovet İttifaqı Qəhrəmanı" adına, Rəhim Rəhimov "Şöhrət" ordeninin hər üç dərəcəsinə layiq görülmüşlər. Baloğlan Rüstəmov, Yaqub Zalov, İsa Hüseynov, Zərifə Camalbəyova, Qadir Rəcəbov kimi igid döyüşçülər isə "Şöhrət" ordeninin ayrı-ayrı dərəcələri ilə təltif edilmişlər.

Sovet İttifaqı marşalı Fyodor Tolbuxin "Azərbaycan xalqına eşq olsun" adlı məqaləsində yazırdı: "Qızıl Ordu bir çox qələbələri üçün hücum edən hissələrə vaxtında və keyfiyyətli yanacaq verdiyinə görə Azərbaycan xalqına və qəhrəman Bakı neftçilərinə borcludur. Stalinqrad ətrafında, Don çayı üzərində və Donbasda, Dnepr və Dnestr sahillərində, Belqradda, Budapeşt və Vyana ətrafında bizim cəbhənin döyüşçüləri Azərbaycan neftçilərini minnətdarlıqla xatırlayır və neft Bakısının qəhrəman əməkçilərini alqışlayırdılar".

Azərbaycanlılardan ibarət 77-ci "Simferopol" diviziyasının tərkibində vuruşaraq igidlik, qəhrəmanlıq göstərən Kamil İbrahimov, Cəfər Qasımov, Qara Fərzəliyev, Cəfər Cəfərov kimi həmyerlilərimiz də cəbhədən doğma Naxçıvana yüksək dövlət mükafatları ilə qayıtmışlar. Azərbaycanlılardan ibarət olan 416-cı "Taqanroq" diviziyasının 8 nəfər döyüşçüsü "Sovet İttifaqı Qəhrəmanı" adına, 258 nəfəri "Qırmızı Bayraq" ordeninə layiq görülmüşlər. Döyüş ordenləri alanlar arasında həmyerlilərimiz də çoxdur. Qərib Abbasov, Cəlal Axundov, Xeyrənsə Abdullayeva, Ağakişi Abbasov, Hüseyn Ağayev, Xalıqverdi Behbudov, Qasım Qasımov da onların sırasındadır.

Müharibədə qələbəni təmin etmək üçün arxa cəbhədə çalışan zəhmətkeşlər də döyüşən orduya yaxından və hərtərəfli köməklik göstərmişlər. Təkcə bir faktı qeyd etmək kifayətdir ki, müharibə illərində döyüşən orduya nə qədər neft və neft məhsulları lazım idisə, onun 80-85 faizi Azərbaycanda istehsal olunmuşdur. Muxtar respublikamızın zəhmətkeşləri də müdafiə fonduna xeyli köməklik göstərmişlər. Belə ki, 1941-1945-ci illərdə bu fonda 180 milyon 89 min manat nağd pul, 12 kiloqram qızıl, gümüş, 160 min dəstdən artıq isti paltar, 10 mindən artıq bağlama göndərilmişdir. Şərur rayonunun Çərçiboğan kəndindən Bəhman Cəfərov, Qarabağlar kəndindən Vəli Mədətov, İbadulla kəndindən Məmməd Əliyev, Vərməziyar kəndindən Vəli Muxtarov və başqaları öz halal zəhmət haqlarından 300-350 min manat pul toplayaraq qələbənin tezləşməsi üçün tank dəstəsinə yardım göstərmişlər.

Həm ön, həm də arxa cəbhədə fədakarlıq göstərən igid oğul və qızlarımızın əməyinə yüksək qiymət verən ümummilli liderimiz Heydər Əliyev demişdir: ***"...Azərbaycanın bütün ictimaiyyəti, bütün Azərbaycan xalqı bilməlidir ki, Böyük Vətən müharibəsinin veteranları bizim ən əziz, ən mötəbər insanlarımızdır. Onlara qayğı göstərmək, hörmət etmək, onların bütün problemlərini həll etmək bizim dövlətin və hər bir dövlət orqanının, hər bir Azərbaycan vətəndaşının borcudur".***

✍ **Səbuhi HƏSƏNOV**

## Şərurlu gənclər "Araz sahilində doğan Günəş" tamaşasına baxıblar

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu, Gənclər və İdman Nazirliyi, Mədəniyyət və Turizm Nazirliyi və Naxçıvan Dövlət Musiqili Dram Teatrının birgə təşkilatçılığı ilə Şərur Rayon Mədəniyyət Evində tamaşa nümayiş etdirilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun 2015-ci il üçün tədbirlər planının müvafiq bəndinə əsasən, vətənpərvərlik mövzusunda muxtar respublikanın şəhər və rayonlarında teatr tamaşalarının nümayişi və gənclərin bu tamaşalara cəlb olunması məqsədilə təşkil edilən tədbirdə Həsənəli Eyvazlının "Araz sahilində doğan Günəş" əsəri əsasında hazırlanmış tamaşası nümayiş olunub. Tamaşanı 400 nəfər gənc və yeniyetmə izləyib.



**Xəbərlər şöbəsi**

## "Universiada-2015" çərçivəsində idman yarışları davam edir

*Naxçıvan Dövlət Universitetində müstəqil Azərbaycanın memarı və qurucusu, ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş "Universiada-2015" proqramına daxil olan idman yarışlarına aprel ayının 10-da start verilib.*

Universitetin 10 fakültəsinin qatıldığı "Universiada-2015" çərçivəsində idman yarışları davam edir. Bu günə qədər idmanın müxtəlif növləri üzrə keçirilən "Universiada-2015" yarışlarında oğlanlardan ibarət voleybol komandalarının yarışında Pedaqoji fakültənin, qızlar arasında keçirilən voleybol yarışlarında isə Tibb fakültəsinin komandaları qələbə qazanıblar. Universiadaya daxil edilən yarışlardan digəri stolüstü tennis oyunu olub. Pedaqoji fakültənin komandası I yerə çıxıb, Fizika-riyaziyyat və İqtisad fakültələri isə II və III yerləri bölüşüblər. Stolüstü tennis oyunu üzrə şəxsi birincilikdə "bədən tərbiyəsi və idman" ixtisasının IV kurs tələbəsi Həsən Qaraslan, həmin ixtisasın III kurs tələbəsi Səriyyə Quliyeva I yerin qalibləri olublar.

Qeyd edək ki, universiadaya may ayının 10-da yekun vurulacaq, həmin gün qaliblər kubok və diplomlarla təltif olunacaqlar.

**Mina QASIMOVA**

## İdmançılarımız Azərbaycan çempionatından medallarla qayıdıblar

Bakı şəhərində keçirilən kikboksinq üzrə yeniyetmə və kişilər arasında Azərbaycan çempionatına yekun vurulub. Bu çempionatda Naxçıvan Muxtar Respublikası Şərq Döyüşü Sənəti Federasiyasının yetirmələri də iştirak ediblər. Paytaxta 4 idmançı ilə yollanan kikboksinqçilərimizdən üçü mükafatçılar sırasına düşüb. Ən uğurlu nəticəni 71 kiloqram çəki dərəcəsində mübarizə aparan Cavidan Rəcəbli əldə edib. Belə ki, o, final görüşünə kimi məğlubiyyətsiz irəliləyib və yalnız həlledici qarşılaşmada rinqi məğlub tərk edib. Digər idmançılarımızdan 48 kiloqram çəki dərəcəsində Fərman Rzayev və 57 kiloqram çəki dərəcəsində mübarizə aparan Ruslan Musayev isə üçüncülüklə kifayətləniblər.

Sonda idmançılarımıza təşkilatçılar tərəfindən diplom və medallar təqdim edilib.

Qeyd edək ki, idmançılarımız bu uğurlu çıxışlardan sonra Azərbaycan millisinin heyətinə cəlb ediliblər və hazırda yığma ilə birgə Bakıda təlim-məşq toplanışındadırlar.

✍ **Ceyhun MƏMMƏDOV**

## "Nuh yurdu" intellektual oyununun rayon birinciliyi

*Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu, Gənclər və İdman Nazirliyi, Təhsil Nazirliyi və Naxçıvan Muxtar Respublikası "Gənclərin İntellektual İnkişaf Mərkəzi" İctimai Birliyinin birgə təşkilatçılığı ilə Sədərək rayonunda yeniyetmələr arasında "Nuh yurdu" intellektual oyununun rayon birinciliyi keçirilib.*

Tədbirdə Gənclər və İdman Nazirliyinin Gənclərlə iş şöbəsinin müdiri Canməmməd Canməmmədov, Sədərək Rayon Gənclər və İdman İdarəsinin rəisi Etibar Əliyev çıxış edərək intellektual oyunun keçirilməsində məqsədin Azərbaycanın, o cümlədən Naxçıvanın zəngin milli mədəniyyətinin və tarixinin təbliğindən, yeniyetmələrin intellektual səviyyələrini, dünyagörüşünü, zehni inkişafını stimullaşdırmaqdan, onlar arasında bilik və elmin nüfuzunu artırmaqdan, eləcə də asudə vaxtlarının səmərəli təşkili istiqamətində yeni üsullar tətbiq etməkdən ibarət olduğunu bildirib və iştirakçılara uğurlar arzulayıblar.

İntellektual oyunda 6 komanda iştirak edib. İki mərhələ və final mərhələsindən ibarət oyunun nəticələrinə əsasən, Sədərək rayon 2 nömrəli tam orta məktəbin "Qeyrət qalası" komandası birinci yerə layiq görülüb. İkinci yerə Sədərək rayon 1 nömrəli tam orta məktəbin "Sədərək", üçüncü yerə isə həmin məktəbin "Ağ oğlan" komandaları layiq görülüblər.

Qaliblər təşkilatçılar tərəfindən diplom, fəxri fərman, kubok və hədiyyələrlə mükafatlandırılıblar.

✍ **C.MƏMMƏDOV**

## Elan

Naxçıvan Müəllimlər İnstitutunda ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş "Müasir təlim metodları və yeni pedaqoji texnologiyaların təlim-tərbiyə prosesində tətbiqi" mövzusunda respublika elmi konfransı keçiriləcəkdir. Konfransda aşağıdakı bölmələr üzrə məruzələr dinləniləcəkdir:

*1. Heydər Əliyev və müasir təhsil*

*2. Yeni pedaqoji texnologiyalarda pedaqogika və psixologiyanın rolu*

*3. Təhsilin müasir tələbləri və tərbiyə məsələləri*

*4. Fənlərin tədrisi texnologiyaları.*

Konfransda respublikanın ali və orta təhsil müəssisələrinin əməkdaşları məruzələrlə çıxış edə bilərlər.

Tezislər konstruktiv, konkret və konfransın mövzusuna uyğun olmalıdır və 1 sm intervalla, 14 şriftlə (Times New Roman), formatı soldan, sağdan, yuxarıdan, aşağıdan 2 sm olmaq şərti ilə 1-3 səhifə həcmində təqdim olunmalıdır. Müəlliflərin adı, soyadı, elmi dərəcəsi, iş yeri məqalənin adının altında yazılmalıdır. Konfransın materialları məcmuə şəklində nəşr olunacaqdır.

Məruzələr 1 may 2015-ci il tarixədək Naxçıvan Müəllimlər İnstitutunun elmi hissəsində qəbul olunur.

Konfrans 5 may 2015-ci il tarixdə saat $11^{00}$-də Naxçıvan Müəllimlər İnstitutunun akt zalında keçiriləcəkdir.

***Ünvan: Naxçıvan şəhəri,***
***Heydər Əliyev prospekti 1.***
***Naxçıvan Müəllimlər İnstitutu***
***Telefonlar: (+99036) 545-32-02***
***(+99036) 544-04-29***
***Faks: (+99036) 545-32-02***

## Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyi
### *dövlət vergi orqanlarına işə qəbul olmaq istəyən vətəndaşlar üçün müsabiqə elan edir*

Dövlət vergi orqanlarına xidmətə qəbul "Dövlət vergi orqanlarına işə qəbul olunmaq üçün namizədlərin müsabiqəsinin keçirilməsi haqqında Əsasnamə"yə və "Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə"yə müvafiq olaraq aparılır.

Müsabiqəyə sənəd qəbulu 01.05.2015-ci il tarixdən 31.05.2015-ci il tarixədək aparılır. İştirak etmək istəyənlər aşağıdakı sənədləri təqdim etməlidirlər:

*1. Vergilər Nazirliyi tərəfindən müəyyən olunmuş formada ərizə (blank Vergilər Nazirliyi tərəfindən verilir)*

*2. Şəxsiyyət vəsiqəsinin notarial qaydada təsdiq olunmuş surəti*

*3. Kadrların şəxsi uçot vərəqəsi*

*4. Tərcümeyi-hal*

*5. 4x6 sm ölçüdə 2 ədəd, 9x12 sm ölçüdə 1 ədəd, 2,5x3,5 sm ölçüdə 2 ədəd rəngli fotoşəkillər*

*6. Ali təhsil barədə diplomun notarial qaydada təsdiq olunmuş surəti (xarici ölkədə təhsil almış namizədlərin diplomları qanunamüvafiq qaydada notarifikasiya olunmalıdır)*

*7. Əmək kitabçasının təsdiq olunmuş surəti (son iş yeri barədə qeydin olması şərti ilə) və ya əmək fəaliyyətinin olmadığı haqqında arayış*

*8. Yaşadığı yerin poliklinikasından sağlamlıq barədə arayış*

*9. Psixi Xəstəliklər Dispanserindən arayış və yoxlama aktı*

*10. Yaşadığı ünvan və ailə tərkibi haqqında arayış*

*11. Nikah, uşaqların doğum haqqında şəhadətnamələrinin notarial qaydada təsdiq olunmuş surətləri*

*12. Hərbi biletin qeyd aparılmış bütün vərəqlərinin surəti (notarial qaydada təsdiq olunmuş).*

Bu sənədlərdən hər hansı biri çatışmadıqda və ya saxta olduğu aşkar edildikdə namizəd müsabiqəyə buraxılmır. Sənəd qəbulu zamanı əyani şöbədə ali təhsil alan, hərbi xidmətdə olmayan, ali təhsilə malik olmayan, yaşı 35-i keçmiş, məhdud fəaliyyət qabiliyyətli və ya fəaliyyət qabiliyyəti olmayan hesab edilən və üzərindən məhkumluğu götürülməyən və ya ödənilməyən vətəndaşların sənədləri qəbul edilmir. Müsabiqədə yalnız hərbi xidmətə tam yararlı (qanuni əsaslarla müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olanlar və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilənlər istisna olmaqla), iqtisadiyyat, hüquq və beynəlxalq iqtisadi münasibətlər üzrə ixtisas sahələrindən birinə malik olan və Azərbaycan Respublikasının dövlət dilini sərbəst bilən Azərbaycan Respublikasının vətəndaşları iştirak edə bilərlər.

Müsabiqəni müvəffəqiyyətlə keçmiş namizədlərə yalnız aşağıda göstərilən 43 sayda vakant yer üzrə iş təklif ediləcəkdir:

*1. Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyi – 16 yer*

*2. Naxçıvan Şəhər Vergilər İdarəsi – 3 yer*

*3. Babək Rayon Vergilər Şöbəsi – 6 yer*

*4. Ordubad Rayon Vergilər Şöbəsi – 4 yer*

*5. Kəngərli Rayon Vergilər Şöbəsi – 7 yer*

*6. Şahbuz Rayon Vergilər Şöbəsi – 5 yer*

*7. Sədərək Rayon Vergilər Şöbəsi – 2 yer.*

**Qeyd:** Müsabiqəni müvəffəqiyyətlə keçmiş, hər hansı sahibkarlıq fəaliyyəti ilə məşğul olan namizədlər fəaliyyətləri ləğv olunmadan işlə təmin olunmurlar.

Namizəd ona təklif olunan vəzifədən imtina edərsə, Vergilər Nazirliyinin kadr ehtiyatından çıxarılacaq.

Boş yerlərin sayı müsabiqənin sonuna qədər dəyişə bilər.

### *İtmişdir*

Naxçıvan şəhəri, Şəhriyar küçəsi $3^{A}$ ünvanında yaşamış Allahverdiyev Vəli Əli oğlunun adına olan 1602 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

* * *

Naxçıvan şəhəri, Xətai məhəlləsi, döngə 6, ev 8-də yaşayan Quliyeva Minəvər Səyid qızının adına olan 13650 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor:
TURAL SƏFƏROV

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 334